# TARİXŞÜNASLIQ

*Nərgiz Əliyeva. Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun tarixinə dair // Əlyazmalar yanmır, 2018, № 2 (7), s.151-154.*

UOT: 94

**Nərgiz Əliyeva**
*elmi işçi*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı şəhəri, İstiqlaliyyət küçəsi 26.*
*esmerhva23@gmail.com*

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNUN TARİXİNƏ DAİR

**Açar sözlər:** *neft sənayesi, memarlıq abidələri, Qızlar seminariyası, İsmailiyə binası, Opera teatrı, Səadət sarayı, H.B.Zərdabi, İ.Qaslovski, türk-müsəlman dünyası.*

**Ключевие слова:** *нефтяная промышленность, ачхитектурные памятники, девичья, семинария, Исмаилия, Оперный театр, Дом счастья, Г.З.Тагиев, Г.Б.Зардаби, И.Гославский турксκого-мусульманский мир.*

**Key words:** *oil industry, architectural monuments,The building of girls seminary, Ismailiyya, Opera House, Home of Happiness, H.Z.Taghiyev, H.B.Zardabi, I.Goslavskiy, Turkic-Muslim world.*

*XX əsrin II yarısından etibarən Bakıda neft sənayesinin inkişafı milli burjuaziyanın inkişafına güclü təkan verdi. Məhz bu dövrdən etibarən Bakının neft şəhəri kimi inkişafı saysız-hesabsız, təkrarolunmaz memarlıq abidələrinin tikilməsinə, nəticədə şəhərin özünəməxsus memarlıq abidələri vasitəsilə dünyada tanınmasına səbəb oldu.*

Klassik Şərq üslubu ilə Qərb üslubunun sintezi əsasında tikilən həmin tarixi abidələr şəhərə xüsusi gözəllik gətirir, onu daha cazibədar və maraqlı edirdi. XIX əsrin sonları, XX əsrin əvvəllərində neft Bakısında tikilən qızlar məktəbi (indiki Füzuli adına Əlyazmalar İnstitutu, İstiqlaliyyat küçəsi) binası, İsmailiyyə adı ilə tanınan AMEA-nın Rəyasət Heyətinin yerləşdiyi bina, Bakı Dumasının (Bakısoveti) binası, Passaj bazarının binası, Səadət sarayı (M.Muxtarovun evi), Filarmoniyanın binası, Opera-Balet teatırının binası, Tarix muzeyi (H.Z.Tağıyevin evi) və s. Bakının təkrarolunmaz memarlıq abidələrindəndir[1].

İstiqlaliyyət küçəsində yerləşən Azərbaycan Əlyazmalar İnstitutunun binası da onlardan biridir.

Bu bina dünyada ilk dəfə olaraq müsəlman qızlar üçün tikilmiş lisey idi.

Əgər binanın tikilməsi tarixçəsindən bir az da əvvələ qayıtsaq, onun tikintisinin üç görkəmli şəxsiyyətin adı ilə bağlı olduğunu görərik.

Onlardan birincisi Bakı neft milyonçusu və şəhərin ən böyük xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyev (1823-1924) olmuşdur. O, binanın tikilməsi üçün Rus imperatoruna müraciət etmiş razılıq aldıqdan sonra onun xərclərini maliyyələşdirmişdir. Bu məktəbin binasının ye-

[1]Ç.Qacar. Köhnə Bakı. Bakı, "Radius" nəşr. 2016

rinin müəyyən edilməsinə və tikilməsinə 4 il vaxt sərf olunmuşdur. Bu xalqın, xüsusən qadınların dünyəvi təhsilə cəlb edilməsi və Azərbaycan maarifçiliyinin inkişafı naminə edilmişdir.

İkinci şəxs isə Azərbaycanın ilk maarifçi ziyalısı və jurnalisti Həsən bəy Zərdabi idi (1837-1907). O hələ lisey açılmazdan çox əvvəl qızlar və oğlanlar üçün dünyəvi təhsilin təbliğatçılarından biri olmuşdur. H.B.Zərdabi Azərbaycanda M.F.Axundzadə, N.Nərimanov və digərləri ilə birlikdə böyük maarifçili hərəkatının öncüllərindən idi. O, 1875-1877-ci illərdə ölkənin ilk mətbuat oryanı olan «Əkinçi» qəzetini nəşr etdirilmişdir.

Üçüncü şəxs gənc polyak mühəndis İosif Vikentiyevic Qoslavski (1865-1904) idi. O, çox istedadlı şəxs idi və o Bakının baş memarı təyin ediləndə cəmi 27 yaşı var idi. O, H.Z.Tağıyevin tikdirdiyi bütün binaların layihəçisi və mühəndisi olmuşdur[1]. Hacı Zeynalabdin Tağıyev məktəbin binasının layihələşdirilməsi və tikilməsini də Qoslabskiyə həvalə edir. Qoslavski qızlar üçün məktəb binasının layihəsini 1896-cı ildə başa çatdırır. Müsəlman qızlar məktəbi İsmaliyyə Binasının yanında tikilir. Binanın quruluşu at nalı şəklindədir və içəri həyətinin cənub hissəsi qala divarlarına söykənir. Belə konstuksiya şərq şəhərinin isti iqliminə və yaşayış şəraitinə uyğun idi. Tələbə qızların sərbəst şəkildə gəzib-dolaşmaları üçün layihədə kiçik bağça nəzərdə tutulmuşdur. Binanın əsas mərkəz hissəsi müdriyyət və auditoriya üçün nəzərdə tutulmuşdur. Giriş və çıxış əsasən Nikolayevskaya (İstiqlaliyyət) küçəsindən layihələndirilmişdir. Binanın layihəsi memar tərəfindən elə verilmişdir o, özündə orta əsrlər Şərq memarlığının ən gözəl elementlərini əks etdirirdi. Binanın fasadı Ərəb-Şərq memarlığının ənənələri əsasında tikilmişdir. Tikintiyə 1898-ci ildə başlanmış 1901-ci ildə başa çatdırılmışdır. Binanın açılışı türk-müsəlman dünyasında böyük əks-səda vermişdir. Bakıda qızlar liseyinin açılması türk-müsəlman dünyasında inqilabi bir hadisə idi. Onun tikintisi yerli müsəlman ruhanilərinin ciddi müqaviməti ilə üzləşmişdi. Bina arxitekturasının Şərq məscidi üslubunda olması mühafizəkar dairələrin ürəyini ələ almaq ehtiyacına xidmət edirdi.

1917-ci ilin fevral inqilabı ölkədə iytisadi vəziyyəti ağırlaşdırdı və məktəbin fəaliyyəti həmin ilin aprel ayında dayandırıldı.

Müharibə və inqilablar məktəbin bağlanmasına səbəb olsa da, Azərbaycan Cümhuriyyəti yarandı və həmin bina dövlətin sütununa çevrildi.

1918-ci ildə Azərbaycan öz müstəqilliyini elan edəndən sonra Milli hökümətin parlamentinin ilk iclası bu binada açılmış, onun sədri M.Ə.Rəsulzadə ilk iclasda geniş çıxış etmişdir.[2]

Bu bütün müsəlman dünyasında ilk sivil parlament idi. Parlamentdə müxtəlif məsələləri müzakirələri həll edən siyasi elita həm Azərbaycan xalqı, həm də türk müsəlman dünyası üçün yeni eranın başlanğıcını təmin etdi.[3]

1920-ci il 28 aprelədək, islam şərqinin ilk parlamenti fəaliyyətinə son qoyulanadək işlədi.

Daha sonralar Azərbaycan SSR Ali Soveti bu binada yerləşmişdir.

Burada 1950-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun əlyazmalar fondu yaradılmışdır. Əlyazmalar fondu orta əsrlər Şərq yazılı abidələrinin toplanması mühafizəsi və nəşri üzrə vahid bir mərkəz idi.

Respublikamızda Əlyazmaların toplanmasına hələ XX əsrin əvvəllərində başlanmışdır.

1924-cü ilin 21-24 sentyabrında Bakıda Birinci Ümumazərbaycan diyarşünaslıq qurultayı keçirildi. Burada, Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyəti nəzdində xüsusi əski çap kitabları və əlyazmalar şöbəsi olan elmi kitabxananın təşkili məsələsinə də baxıldı.

1929-cu ildə Azərbaycan Tədqiqi və Tətəbbö cəmiyyəti Dövlət Elmi-Tədqiqat İnstitutuna çevrildi.

---

[1] G.Zarimetin. İosif Qoslavski. Bakı şəhərinin tarixindəki memar. Şərq-Qərb 2013, Ş.Fətullayev, İ.V.Qoslavski – Qafqazlı Rastrelli. Bakı,2013.

[2] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, Bakı, “Lider”, 2013.

[3] Z.Əmrahov. Azərbaycan parlamenti-100. B., 2013, s.23.

1929-cu il 22 oktyabrında keçirilən iclasda Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Qəzənfər Musabəyov çıxış edərək H.Cəbiyevin Sədinin Əlyazmasının instituta verilməsini xüsusi bir hadisə kimi qeyd etmişdir.

Əlyazmalar İnstitutuun müasir elmi-tədqiqat mərkəzi kimi təşəkkülü Ümummilli lider, ulu öndər Heydər Əliyev cənabrarının adı ilə bağlıdır.[1]

1982-ci ildə Əlyazmalarımızın, yerli abidələrimizin milli mədəniyyətimizdəki rolunu nəzərə alsaq H.Əliyevin iradəsilə bina Əlyazmalar Fonduna verilmişdir.

1986-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinçi müavini H.Əliyev cənablarının köməyi sayəsində SSRİ Nazirlər Sovetinin 28 oktyabr tarixli, 2162 № li sərəncamı, bir müddət sonra Azərbaycan SSRİ Nazirlər Sovetinin 11 noyabr 1986ci il tarixli 398 № li Qərarı və Azərbaycan SSRİ EA Rəyasət Heyətini 4 dekabr 1986-ci il tarixli 22/3№ li qərarı ilə Respublika Əlyazmalar İnstitutu təsis edilmişdir. Əlyazmalar İnstitutunun kimin adının daşıması mübahisəli məsələ olaraq qalırdı. Lakin ümummilli liderimizin ona Məhəmməd Füzuli adının verilməsi haqqındakı qərarı daha məntiqli idi. M.Füzuli adına Əlyazmalar İnstitutu dünyanın ən zəngin əlyazma xəzinələrindən biridir. Orta əsr kitabxanalarının, eləcə də Azərbaycanda XIX-XX əsrlərdə yaşamış görkəmli mədəniyyət xadimlərindən Abbasquluağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Əbdülqəni Əfəndi Xalisəqarizadə, Hüseyn Əfəndi Qayıbov, Bəhmən Mirzə Qaçar, Mir Mövsün Nəvvab və başqalarının şəxsi kolleksiyalarına daxil olan materiallar institutunun Əlyazmalar fondunun əsasını təşkil edir.[2]

Əlyazmalar İnstitutu orta əsrlər elmlərinin bütün sahələrinə aid Azərbaycan, türk, ərəb, fars dillərində zəngin və nadir əlyazmalar kolleksiyasına malikdir. İnstitutda 40 mindən artıq mənbə və ekspoziyası vardır.

Əlyazmalar institutunda saxlanılan ən qədim əlyazma IX əsrə aid edilən dəri üzərində yazılmış Quranın "Ən-Nusa"surəsinin bir hissəsidir. Ümumiyyətlə, Respublikada yazılı abidələr üzərində indiyədək aparılan elmi axtarışlarda mühüm nailiyyətlər əldə edilmişdir.

Keçən əsrin 50-80-ci illərində müəssisədə Məmmədağa Sultanov, Cahangir Qəhrəmanov, Həmid Araslı, tanınmış elm xadimləri Rüstəm Əliyev, Əzizağa Məmmədov, Əzizə Cəfərzadə kimi tanınmış alimlər çalışmışlar.

### Ədəbiyyat:


1. G.Zarimetin. İosif Qoslavski. "Bakı şəhərinin tarixindəki memar". (Şərq-Qərb 2013).
2. Из сокровищницы рукописей Азербайджана. Республиканский рукописный фонд Издательство «Элм», Баку, 1983.
3. Şamil Fətullayev- İ.V.Qoslavski – Qafqazlı Rastrelli. Bakı,2013.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, Bakı, "Lider", 2013.
5. Z.Əmrahov. Azərbaycan parlamenti-100. B., 2018, s.23.
6. Ç.Qacar. Köhnə Bakı. "Radius" nəşriyyatı, 2016.


[1] Из сокровищници рукописей Азербайджана. Pespublika Əlyazmalar fondu (rus dilində) Bakı, Elm, 1983.
[2] Yenə orada, s.23.

**Наргиз Алиева**

**Из истории Института рукописей им.М.Физули НАН Азербайджана**

***РЕЗЮМЕ***

Развитие нефтяной промышлыноение во второй половине X1X в.в Баку открыло широкие возможности для роста национальной буржуазии. В городе было построено много архитектурных памятников, жилых зданий, в числе которых здания Бакинской Думы (ныне Баксовет), Дом счастья (дом Муртуза Мухтарова), Азгосфилормонии Оперного Театра, Исмалии (здания Президиума Академии), Девичьей Семинарии и др. Последный был построен по инициативе известного бакинского мецената Г.З.Тагиева. Архитектором этого здания был известный польский архитектор И.Гославский. Завершенное проектирование в 1896 году этого здания было сдано в эксплуатацию 15 сентября 1901 году. Это было первое просветительское учреждение нового содержания в тюркско-мусульманском мире.

**Nargiz Aliyeva**

**On History of the Institute of Manuscripts named after M.Fuzuli of ANAS**

***SUMMARY***

Development of the oil industry in Baku in the second half of the 19 th century opened wide opportunities for growth of national bourgeoisie. The building of School for girls (present Institute of Manuscript named after Fuzuli, str. Istiglaliyyat), building where the Presidium of ANAS is situated known as Ismailiyya, building of Baku dumas (Baku soviet), building of passage market, Saadat palace (home of M.Mukhtarov), Philharmonic building, building of Opera-ballet theatre, Historical museum (home of H.Z.Taghiyev) etc. are some of the unique architectural monuments of Baku.The last building was built on the initiative of H.Z.Taghiyev, the famous philanthropist from Baku. The author of that building was I. Goslavskiy, the famous Polish architect. The project of the building was completed in 1896 and it began to be exploited on the 15th of September in 1901. It was the first instructive institution of new maintenance in the Turkic-Muslim World.

*Redaksiyaya daxil olma tarixi: 07.10.2018*
*Çapa qəbul olunma tarixi: 06.11.2018*

Filologiya üzrə elmlər doktoru, professor **Məmməd Əliyev**
tərəfindən çapa tövsiyə olunmuşdur.